**Mirzə, M**. Ad günlərini evdə qeyd etməyi arzulasa da... // Respublika. - 2025. - 10 iyul. - **№ 139**. - S. 7.

Vətən müharibəsində dünyaya səs salan qüdrətli ordumuzun igidləri hərb meydanında qəhrəmanlıq tarixi yazdılar. Belə qəhrəman oğullarımızdan biri də Əmral Xəmmədovdur. O döyüşlərdə xüsusi təyinatlı olaraq şücaət göstərib.

Əmral hələ uşaq yaşlarından hərbçi dayısının yolunu davam etdirmək arzusunda olub və vətən keşiyində dayanmağı qarşısına məqsəd qoyub. 2019-cu il oktyabrın 2-də 18 yaşı tamam olan Əmral həqiqi hərbi xidmətə yollanıb.

Əmralın babası Balamirzə Musayevin qəhrəman nəvəsi haqqında xatirələrindən: "O, hələ hərbi xidmətə yollanmazdan əvvəl deyirdi ki, dayım kimi xüsusi təyinatlı olacağam və arzusuna da çatdı. Öncə Gəncədə, sonradan Cəlilabadda yerləşən xüsusi təyinatlı hərbi hissədə xidmət etdi. Hərbi təlimləri uğurlu keçdiyi üçün döyüşlər zamanı xüsusi tapşırıqların yerinə yetirilməsində iştirak edib. Bir çox istiqamətlərdə uğurlu hücumlarda Əmral öz şücaəti ilə seçilib. Tək mənim nəvəm deyil, bütün şəhidlərimizin qanı bahasına bu torpaqlar azad edildi, ona görə cəmi şəhidlərimizlə fəxr edirəm".

Şəhidin dayısı Xalid Musayev deyir: O uşaqlıdan vətənə bağlı olması ilə seçilirdi. Vətən müharibəsində də seçilmişlər sırasında döyüşə qatıldı. Döyüş başlanan gündən ən öndə gedənlərdən biri olub. Cəbrayıl istiqamətində demək olar ki, azad edilən bütün kəndlər uğrunda döyüşlərdə iştirak edib. Füzuli istiqamətində tapşırıq yerinə yetirən zaman Əmral və döyüşçü yoldaşları 2 düşmən postunu azad edərək xeyli qənimət ələ keçiriblər. Daha sonra Füzuli uğrunda gedən döyüşlərdə - 3-cü posta tərəf irəliləyən zaman Əmral düşmən gülləsinə tuş gəlib.

Şəhidin anası Samirə Musayeva qəhrəman övladı ilə qürur hissi keçirdiyini deyir: "Əmral uşaqlıqdan çox vətənpərvər idi. Sanki o, bu torpaq üçün dünyaya gəlmişdi. Tale elə gətirdi ki, son dəfə ad gününü də döyüşdə qarşıladı və biz onu təbrik edərkən növbəti ad günlərini evdə qeyd etməyi arzuladıq. Lakin Əmral doğum günündən 12 gün sonra Vətən torpağı uğrunda şəhidlik zirvəsinə ucaldı. Bu gün bir ana olaraq övladımla və bütün şəhidlərimizlə qürur duyuram. Çünki onlar 30 illik həsrətə son qoydular, şəhidlərimizin qanı yerdə qalmadı, torpaqlarımız yağı düşmən tapdağından azad edildi".

Əmral 2020-ci il oktyabrın 14-dən 15-nə keçən gecə şəhidlik zirvəsinə ucalıb və doğulub boya-başa çatdığı İmişli rayon Çaxırlı kəndində torpağa tapşırılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə Əmral Xəmmədov döyüşlərdə göstərdiyi şücaətə görə ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəsur Döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.